# Görkəmli elm xadimləri Tehran Mustafayev haqqında

Tehran Mustafayevin tənqidi məqalələrində çağdaş söz sənətimizə ciddi, peşəkar baxışı, nəsrimizdə müşahidə etdiyi uğurları və uğursuzluqları dünya ədəbiyyatı kontekstində təhlil etmək bacarığı təqdirəlayiqdir. Geniş mütaliəsi, elmi-nəzəri hazırlığı ədəbi əsərlər haqqında dürüst nəticələr çıxarmağına zəmin yaradır. Biliklərinə ədəbi peşələr arasında nadir olan araşdırıcı istedadı əlavə edildikdə yazılarının diqqət çəkməsi təbiidir. Həmişə bu fikirdə olmuşam ki, "tənqid" sözü özü dəqiq deyil. Ədəbi əsərin şit tərifə, ya əsassız tənqidə deyil, inandırıcı təhlilə ehtiyacı olur. Tehran Mustafayev ədəbi mətnə məhz bu cür yanaşan təhlilçilərimizdəndir.

**ANAR**
*Azərbaycan Yazıçılar Birliyinin sədri*
*Xalq yazıçısı*

Tehran Mustafayev ədəbi tənqidlə ardıcıl məşğul olan və ədəbiyyatşünaslıq elminin bu istiqamətini elmi cəhətdən tədqiq edib araşdıran fəal və zəhmətkeş elm adamıdır. Ədəbiyyatşünaslıq meydanına qədəm qoyduğu tələbəlik illərindən bizim günlərə qədər Tehran Mustafayev dayanmadan, geriyə baxmadan ədəbi tənqid sahəsində fəaliyyətini uğurla davam etdirməkdədir. Tehranın tənqidçilik fəaliyyəti üçün ən səviyyəvi cəhətlər ədəbi prosesi ardıcıl olaraq izləməsi, ədəbiyyatda müasirlik anlayışına həyat və sənət baxımından vəhdətdə baxması, bədii əsəri təhlil edərkən mətnin reallığından elmi qənaətlər çıxarmağı bacarması ilə əlaqədardır. Buna görədir ki, Tehran Mustafayevin haqqında söz açdığı yazıçı, yaxud bədii əsər oxucuya bütün əsas cəhətləri, uğurları və kəsirləri ilə bir yerdə obyektiv elmi mövqedən təqdim olunur. Geniş ictimaiyyət, oxucular onun təqdimatında yazıçını və ya bədii əsəri ədəbi prosesin ümumi axarında, bədii yaradıcılıq axtarışlarının ümumi mənzərəsində görə bilir. Tehran yazıçıya, bədii əsərə, ədəbiyyat faktına fərdi, lokal şəkildə yox, inkişafda olan həyat və sənətlə birlikdə, vəhdətdə elmi qiymət verir. Bu isə tənqidçidən geniş elmi dünyagörüş və yüksək professionallıq tələb edir. Tehran Mustafayev hər addımda tənqidçi üçün zəruri olan geniş dünyagörüşlə professionallığın üzvi sintezini nümayiş etdirir. Bu mənada onun ədəbi-tənqidi əsərləri ədəbiyyat və zaman haqqında monoloq kimi səslənir. Lakin Tehran Mustafayev ədəbiyyatdan zamanı sadəcə əks etdirən faktdan daha çox, onun irəliyə doğru inkişaf templərini mənalandırmağı bacaran milli ədəbi sərvət kimi söz açır. Bu mənada onun ədəbi-tənqidi əsərləri ədəbiyyatın da, cəmiyyətin də dialektikasının güzgüsü, yaxud barometri funksiyasını yerinə yetirir.

Tehran Mustafayev Azərbaycan ədəbiyyatşünaslıq elmində müstəqillik dövrü Azərbaycan ədəbi tənqidinin liderlərindən biridir. Ən əsas cəhətlərdən biri də bundan ibarətdir ki, Tehran Mustafayev hər həftə, bəzən hər gün gündəmdə olan, daim, fasiləsiz olaraq yazıb-yaradan və oxunan, düşündürən tənqidçi kimi qəbul olunur. Onun tənqidçilik missiyası ədəbiyyatı, ədəbiyyatşünaslıq elmini, ictimai fikri həmişə irəli aparmağa xidmət edir.

**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın prezidenti, akademik*

Tehran Mustafayev yaradıcılığı şübhəsiz ki, nəzəri-estetik səviyyəsi, problematikanın vacibliyi, məsələlərin işıqlandırılmasında ədəbi zövqün yüksəkliyi istiqamətində tənqidimizin silkələnməsindən, canlanmasından, uğurlarından xəbər verir...

**ELÇİN**
*Xalq yazıçısı*

Tehranın imzası olmadan bizim müasir ədəbi tənqidi təsəvvür etmək bir az çətindir. Çünki Tehranın da ədəbiyyat haqqında müstəqil fikirləri var və o fikirlərin mötəbərliyinə, əsl həqiqəti ifadə etdiyinə bizi inandıra bilib. O, bizim ədəbi prosesdə *tənqidçi* adını doğrulda bilən, bu adı öz ömrünün mənasına çevirən sayı çox az müəlliflərdən biridir.

Onun doktorluq işi Azərbaycan nəsrinin inkişaf yollarına həsr olunmuşdu və Tehran bu tədqiqatında çiyninə qoyduğu ağır yükün öhdəsindən gələ bildi. O, bu mövzuda özünə qədər yazılan tədqiqatlara, ədəbiyyat tarixi oçerklərinə tamam fərqli bir rakursdan yanaşdı, yəni onları təkrar etmədi, nəsrimizin sovet dövrü çərçivəsindən altmış-səksəninci illər durulma, saflaşma, özünü dərketmə mərhələsinə qədər keçdiyi yolları işıqlandıra bildi.

**Vaqif YUSİFLİ**
*Fil.e.d., professor*

Tehran Mustafayev milli nəsrin təşəkkül və intişarını üç mərhələdə öyrənir. XX əsr nəsrinin yaranması, Azərbaycan nəsri sosializm realizmi kontekstində və Azərbaycan yeni nəsri. Məsələnin qoyuluşu konseptual olsa da Tehran Mustafayev bunu özünəməxsusluqla həll edə bilir. Onun yaradıcılığını dinamik poetika da adlandırmaq olar.

**Şirindil ALIŞANLI**
*Fil.e.d., professor*

XX əsr Azərbaycan nəsri haqqında çox yazılsa da, onun poetikasını fundamental şəkildə ortaya çıxarmaq mümkün olmamışdı. Mirzə Cəlildən də ədəbiyyatşünaslığımızda çox tədqiqatlar aparılıb, lakin Tehran sübut etdi ki, Mirzə Cəlil irsi haqqında bütün dövrlərdə orijinal araşdırmalar aparmaq nəinki mümkündür, hətta vacibdir. Mən Tehranın Mirzə Cəlil irsinə müraciətini altmışıncıların bu irsə dönüşünün elmi istiqamətdə əks-sədası kimi başa düşürəm. Tehran özünün müəllimi hesab etdiyi Yaşar Qarayev yolu ilə gedərək realizmə və Mirzə Cəlil irsinə tamamilə başqa rakursdan yanaşdı və müəyyən elmi qənaətlərə gəldi. Mirzə Cəlil ironiyasının alt qatları (qəzavü-qədər fəlsəfəsi, ölülər motivi və s.), realizm gerçəklikləri, dünyagörüşü problemləri, hekayəçiliyində struktur problemləri və s. yeni elmi düşüncə müstəvisində təhlil edildi...

Tehranın nisbətən kölgədə qalan fəaliyyət istiqamətlərindən biri də müəllimliyidir. Mənə elə gəlir ki, bu magistral xətt onun təbiəti ilə tamamilə mütənasibdir. Onu tələbələr çox sevir, "bizə AMEA-nın müxbir üzvü Tehran Mustafayev mühazirə deyir", - deyə məmnundular. Tehran bu sahədə bir neçə proqramlar və dərsliklər yazıb. Magistr və doktorantura hazırlığı üzrə bir çox gənclər onun rəhbərliyi ilə elmə vəsiqə almışlar. Hətta onların yazılarını özünün yaratdığı və redaktoru olduğu "Tənqid.net" dərgisində vaxtaşırı dərc edir. "Tənqid.net" demişkən, çağdaş ədəbi prosesin güzgüsü olan bu dərgi Tehranın həyata keçirmək istədiyi və nail olduğu ən uğurlu layihələrdən biridir.

**Bədirxan ƏHMƏDLİ**
*Fil.e.d., professor*

Tehran Mustafayevin yaradıcılığı birbaşa nəsrin poetikası yox, təşəkkülün poetikasıdır. Nəsrin ictimai-siyasi, tarixi-mədəni, o cümlədən estetik-poetik zəmindən təşəkkül sırasını izləyir. Elə tədqiqatlar var ki, zaman onun qabağındadır, yalnız bu mənzərələri açır. Tehranın yaradıcılığı uzaqdan gerçək zamana baxa bilir, ümumiləşmiş şəkildə təşəkkül mənzərəsini üzə çıxarır...

**Arif ƏMRAHOĞLU**
*Fil.ü.f.d.*